# Hüseynbala MİRƏLƏMOV



AZƏRBAYCAN
ELM
VƏ MƏDƏNİYYƏT
XADİMLƏRİ

# BİBLİOQRAFİYA

AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

M.F.AXUNDOV adına
AZƏRBAYCAN MİLLİ KİTABXANASI



# HÜSEYNBALA MİRƏLƏMOV

BİBLİOQRAFİYA

«ÇİNAR-ÇAP»
BAKI– 2008

Я19:Ш5
M66

AZƏRBAYCAN RESPUBLİKASI
MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ

M.F.AXUNDOV adına
AZƏRBAYCAN MİLLİ KİTABXANASI

BIBLI... YA

*Azərbaycanın elm və mədəniyyət xadimləri*

246160.

# HÜSEYNBALA MİRƏLƏMOV

BİBLİOQRAFİYA
(1961-2007)

«ÇİNAR-ÇAP»
BAKI– 2008

*Tərtibçi-müəllif:* ***Xuraman İsmayılova,***
*M.F.Axundov adına Azərbaycan*
*Milli Kitabxanasının şöbə müdiri*

*Elmi redaktor:* ***Kərim Tahirov,***
*M.F.Axundov adına Azərbaycan*
*Milli Kitabxanasının direktoru*

*Redaktor:* ***Nəzirə Nağıyeva,***
*M.F.Axundov adına Azərbaycan*
*Milli Kitabxanasının baş biblioqrafı*

*Kompüter yığımı və dizayn:* ***Nazlı Şahbazova,***
*M.F.Axundov adına Azərbaycan*
*Milli Kitabxanasının şöbə müdiri*

M 65 **Hüseynbala Mirələmov. Biblioqrafiya.**
Bakı, **«ÇİNAR-ÇAP».** 2008. – 240 səh.

**© «ÇİNAR-ÇAP», 2008**

# TƏRTİBÇİ MÜƏLLİFDƏN

Dünyaya gəlib özümü dərk edən andan möcüzələrə inanmışam və hər günüm, hər anım möcüzə bəkləntisi ilə keçib. Mənim üçün ən böyük möcüzələrdən biri illərlə tanıdığın, birlikdə olduğun insanların yadlığı, heç görmədiyin, tanımadığın insanlarla bircə anda doğmalaşa bilmək möcüzəsidir. Mənim Hüseynbala müəllimlə tanışlığımın və doğmalığımın da tarixi eyni gündən, eyni andan başlayır.

2004-cü ilin may ayının 7-si, Şuşa yaramızın qan verdiyi gün Şuşa Dövlət Musiqili Dram Teatrında "Güllələnmiş heykəllərin fəryadı" adlı tamaşaya baxdım. Sanki qanı açılmış yarama neştər soxmuşdular. Tamaşa qurtaranda heç tanımadığım, ilk dəfə gördüyüm müəllifə yaxınlaşıb təşəkkür etmək istədim. Qəhər aman vermədi və mən sadəcə əlini sıxmaqla kifayətləndim. Çöhrəsindəki və gözlərindəki səmimiyyətdən, mehribanlıqdan daha da kövrələrək aralandım.

Hüseynbala müəllimlə bu ilk tanışlıqdan sonra onun əsərlərini axtarıb tapdım və oxudum. Etiraf edim ki, ilk anlar məni çəkən Qarabağ mövzusu oldu. "Xəcalət" əsəri məni Hüseynbala müəllimin

yaradıcılığının əsiri etdi, "Cəza" povesti müəllifə qəlbimdə əbədi yer ayırdı, "Yanan qar" romanı bu irsə ömürlük bağladı.

Beləliklə, mən onun özünün yazdıqlarını və haqqında yazılanları maraqla izləməyə və kitabxanaçı xislətinə xas olan dəqiqlik və səliqə ilə toplamağa başladım. Artıq xeyli material toplanmışdı və onun yaradıcılığı ilə maraqlanan oxuculara asanlıqla xidmət etmək mümkündü. Hüseynbala müəllim məni tanımırdı və gördüyüm işdən də xəbəri yox idi. Mən bir kitabxanaçı kimi öz vəzifə borcumu yerinə yetirmək və bu günkü mənəvi irsi sabaha ötürmək məqsədini qarşıma qoymuşdum. Qarabağ dərdlərimizi, ağrılarımızı gələcək nəsil mütləq bilməlidir ki, bizim etdiyimiz səhvləri təkrarlamasın.

Mən demək olar ki, Hüseynbala müəllimin həyatı, yaradıcılığı ilə tam tanış idim və onun 2007-ci ildə 60 yaşı olacağını bilirdim. Birdən ağlıma gəldi ki, bu yubileyə hədiyyə olaraq onun əsərlərinin biblioqrafiyasını hazırlaya bilərəm. Böyük həvəslə işə başladım və şükür ki, bu gün başa vurdum.

Oxuculara təqdim olunan bu biblioqrafik göstəricini Qarabağ dərdini belə dərindən duyduğuna və ağrısına qəlbən yandığına görə Hüseynbala müəllimə bütün qarabağlılar adından ərməğan edirəm. Gün o gün olsun ki, qələbə müjdəli, vüsal sevincli əsərlərinin biblioqrafiyasını da hazırlamaq nəsibimiz olsun. Amin!



Çağdaş Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, yazıçı-dramaturq, Millət vəkili, Texnika elmləri doktoru Hüseynbala Fazil oğlu Mirələmov haqqında tərtib olunmuş bu biblioqrafiya ədibin həyat və yaradıcılığının 1961-2007-ci illər arasında olan bir dövrü əhatə edir.

Göstəricidə ədibin kitabları, dövri mətbuatda, məcmuələrdə çap olunmuş əsərləri, elmi-tənqidi və publisist məqalələri, rus və başqa dillərdə çap olunmuş əsərləri, haqqında yazılmış kitablar və məqalələr toplanmışdır. Biblioqrafiyada materiallar xronoloji qaydada verilmişdir və bütün ədəbiyyat aşağıdakı əsas bölmələr üzrə qruplaşdırılmışdır:

I. H.Mirələmovun həyat və yaradıcılığının əsas tarixləri.

II. Əsərləri. Azərbaycan dilində.

III. H.Mirələmovun həyat və yaradıcılığı haqqında.

IV. Əsərləri. Başqa dillərdə.

V. Köməkçi göstəricilər.

Göstərici ədəbiyyatşünaslar, Azərbaycan ədəbiyyat tarixini tədqiq edən alimlər, kitabxanaçılar, biblioqraflar, ədəbiyyatsevərlər və geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Göstəricinin tərtibi prosesində mənə yaxından köməklik göstərdiyinə görə Çingiz Tofiqoğluna dərin minnətdarlığımı bildirirəm.

Göstərici haqqında rəy və təkliflərinizi gözləyirik və əvvəlcədən minnətdarlığımızı bildiririk.



## ÖN SÖZ

İki əsr və minilliyin görüş və ayrılıq məqamında nəfəs alan müasir ədəbi proses bədii yaradıcılıq sahəsində axtarışların intensivliyi ilə diqqəti cəlb edir. Ədəbiyyatın daha fəal ədəbi növləri olan nəsr və poeziya getdikcə daha artıq impulsivliklə zamanın nəbzini tutmağa, hadisələri isti-isti əks etdirməyə imkan verən esse, publisistika, hekayə və povest janrlarından istifadə etməyə çalışır. Qeyd etməliyik ki, yazıçılarımızın öz üslub fərdiliklərini daha qabarıq təzahür etdirmək cəhdləri ədəbiyyatda, xüsusilə də nəsrdə bir bədii üslub əlvanlığı formalaşdırıb. Öz şəxsiyyətinin və bədii üslubunun fərdiliyi ilə XX əsrin 90-cı illərində ədəbi prosesdə fərqlənən, ön plana keçən, XX və XXI əsrlər, II və III minilliklər üzərindən körpü salmağa nail olan yazıçılarımızdan biri də Hüseynbala Mirələmovdur. İxtisasca qaz mühəndisi, bu sahədə bir sıra ixtiraların, monoqrafiya və kitabların müəllifi, tanınmış alim H.Mirələmov ədəbiyyata 60-cı illərin ab-havasında gəlmişdi. Yazıçının ilk kitabı 60-cı illərin görkəmli tənqidçiləri və yazıçıları tərəfindən yüksək qiymətləndirilmiş, xalq yazıçısı Elçin bu kitaba ədibin ədəbi-tarixi taleyini

müəyyənləşdirən çox məzmunlu bir müqəddimə yazmışdır.

Çağdaş ədəbi prosesin yaradıcılıq ahəngi ilə nəfəs alan H.Mirələmov milli ədəbiyyatımızın yazıçısı, publisisti, dramaturqu səviyyəsinə milli tarixi taleyimizin ən ağrılı mövzusunda – Qarabağ mövzusunda yazmaqla yüksəldi. O zamanın nəbzini tutaraq, Qarabağ mövzusunun prizmasından bütövlükdə Azərbaycanın tarixi taleyinə nəzər salmağı bacardı. Mən müəllifin «Qayada çiçək» kitabından sonra çap olunmuş əksər əsərlərinə resenziya və məqalələr həsr etmişəm. Həmin yazılarda və burada da qeyd edirəm ki, H.Mirələmov əsərdən əsərə, kitabdan-kitaba inkişaf edən, bədii yaradıcılıq axtarışlarının novatorluğu ilə sayılan və seçilən yazıçıdır.

Oxucular ədibin təqdim olunan biblioq-rafiyasında onun həyat və yaradıcılığı, ədəbi taleyi, əsərləri və haqqında yazılmış kitab və məqalələrlə tanış olacaqlar. Mənsə aşağıda bir neçə cizgi ilə yazıçının ədəbi-tarixi mövqeyi haqqında təsəvvür yaratmağa çalışacağam.

H.Mirələmov taleyi tarixin ziqzaqlarına ürcah olmuş Azərbaycan yazıçısıdır. Onun «Xəcalət», «Güllələnmiş heykəllərin fəryadı» əsərləri çap yaddaşımızı oyadan dəyərli nümunələr kimi ədəbiy-yatımıza daxil oldu. «Xəcalət» ifadə etdiyi məna çərçivəsindən çıxaraq Qarabağ ağrısına, qaçqınlıq dərdinə milli-mənəvi münasibətimizi ifadə edən, yaddaşımızı korşalmağa qoymayan bədii-fəlsəfi anlayışa çevrildi. Heykəllərə dəyən güllə təkcə keç-mişimizə deyil, gələcəyimizə qəsd kimi mənalandırıldı.



«Gəlinlik paltarı», «Dağlarda atılan güllə», «Babagil əfsanəsi» romanları XXI əsr roman yaradıcılığının ilk örnəkləri kimi ədəbiyyatda nüfuz qazandı.

Şübhəsiz ki, H.Mirələmovun ən güclü əsəri «Cəza» povestidir. Öz bədii-fəlsəfi konsepsiyasına görə «Cəza» dünya ədəbiyyatının ən yaxşı nümunələri ilə bir səviyyədə durmağa layiqdir. Mübaliğəsiz deyə bilərəm ki, təkcə «Xəcalət» və «Cəza» povestləri H.Mirələmovdan görkəmli Azərbaycan yazıçısı kimi bəhs etməyə kifayət edərdi.

Məhz bu povestlərdə H.Mirələmovu bir yazıçı kimi səciyyələndirən, fərdi üslub sahibi edən bir cəhət üzə çıxdı. Yazıçı insanın təbiətlə vəhdətinin fəlsəfi məğzinə varıb, insan taleyinin təbiətdən asılılığını əsaslandırmağa nail oldu. Hər iki povestdə əbədiləşən canavar obrazları H.Mirələmovun qədim türk mənəviyyatına zəruri müraciətinin, ehtiramının rəmzi olaraq ümumiləşdirilib.

XX əsrin 90-cı illərindən etibarən H.Mirələmovun əsərləri Azərbaycanın müxtəlif teatr səhnələrinə

qədəm qoydu. O, səhnəmizə Qarabağ taleyini, Qarabağ ağrısını gətirdi. Mən Azərbaycan Akademik Milli Dram Teatrında «Xəcalət»in səhnələş-dirilmiş variantına baxdıqdan sonra bu əsərin bədii-fəlsəfi konsepsiyasını daha aydın müəyyənləşdirdim.

H.Mirələmovun yaradıcılığında H.Əliyev mövzusu əsas istiqamətlərdən birini təşkil edir. Dünyanın böyük siyasətçişi, ümummilli lider H.Əliyev haqqında müəllif 10-a yaxın kitab yazıb. Xüsusilə, onun JZL seriyasından rus yazıçısı V.Andriyanovla birlikdə yazdıqları iki hissəli «Qeydar Aliyev» kitabı bu dahi şəxsiyyətin tarixi mövqeyini, Azərbaycan xalqının və millətinin, milli dövlətçilik tarixindəki cahanşümul rolunu əks etdirən fundamental əsərdir.

H.Mirələmov öz şəxsiyyətinə sadiq yazıçı, ictimai xadim, təşkilatçıdır. O, Milli Məclisin üzvü kimi geniş ictimai iş aparır, əsil ziyalı və vətəndaş kimi xalqına xidmət edir.

H.Mirələmov yüksək dövlətçilik duyğusuna malik kamil şəxsiyyətdir. O, səxavəti və xeyirxahlığı ilə niskilli ürəkləri mərhəmət nuruna qərq etməyi bacaran humanist və nəcib bir insandır.

Bütün bunlar dünyanın ən nəcib sənəti olan yazıçılıq üçün başlıca şərtlərdir. H.Mirələmov sənətkar mövqeyinin çətinləşdiyi, mürəkkəbləşdiyi bir dövrün aydın mövqeyə malik yazıçısıdır. Onu fərqləndirən



başlıca cəhətlərdən biri də zəmanənin görkəmli yazıçıları ilə bir sırada dayanmağı bacarması, usanmadan, inadkar bir inamla, başlıcası isə ilahi vergisi olan istedadla yaradıcılıq axtarışları aparmasıdır. Bu H.Mirələmovun təkcə bu günün yox, həm də gələcəyin yazıçısı olacağına təminat verir.

*Nizaməddin Şəmsizadə*
Filologiya elmləri doktoru

## ÜRƏK SÖZÜ

Milli Məclisin deputatı, yazıçı-dramaturq, böyük bir müəssisənin rəhbəri, iş adamı kimi insanlar arasında çox oluram. Bu görüşlər, ünsiyyətlər zamanı məndən müxtəlif suallara cavab istəyirlər; «Yazıçı

dünyasına qədər aparıb çıxardı. Sonra ədəbiyyata güclü maraq məni Məhəmməd Füzuli, Nəsimi, Mirzə Cəlil, Sabir, Hüseyn Cavid, Çəmənzəminli, Viktor Hüqo, Şekspir, Robindranat Taqor, Çexov, Dostoyevski, Lev Tolstoy kimi dahilərlə tanış etdi. Bütün bunlardan sonra daxilimdə baş qaldıran istək, daha doğrusu, tələbat mənə 14 yaşımda «Bir tikə çörək» hekayəsini yazdırdı. İlk qələm təcrübəmin (1961-ci ildə) «Leninçi» qəzetində işıq üzü görməsi

düzün olmadan mütaliə edib yazmağı, yazaraq mütaliə etməyi bacarasan.

Böyük Vətən müharibəsindən neçə il sonra doğulmağıma baxmayaraq, bu amansız bəşəri faciənin insanlara gətirdiyi dəhşətləri, əzab və işgəncələri neçə illər sonra belə müşahidə edə bilmişəm. İndi isə ikinci bir müharibənin – erməni faşistlərinin doğma Qarabağımızı işğal etmək üçün başladıqları müharibənin acı nəticələri hamımızın gözü qarşısındadı. Mən «Xəcalət» povestimdə, «Vicdanın hökmü» pyesimdə, «Güllələnmiş heykəl-lərin fəryadı» essemdə, iki hissədən ibarət «Dağlarda atılan güllə» adlı romanımda erməni faşizminin iç üzünü açmağa, müharibənin vurduğu yaraları göstərməyə, xalqımızın haqq işi uğrunda başladığı mübarizəyə işıq tutmağa çalışmışam. Fikrimcə məqsədimə nail ola bilmişəm. Səbəbi həmin dəhşətləri, ağrıları, faciələri ürəyimdə daşımağım, yaşamağım və qəlbimin süzgəcindən keçirməyimdi.

Yazıçılıq başqa xalqlarla dostluq əlaqələrinin genişlənməsinə, inkişaf etdirilməsinə kömək edir. Götürək rus yazıçısı Viktor Andriyanovla dostluğumuzu. Bu sıx əlaqəli iş birliyi, isti münasibətlər nəticəsində məşhur «Molodaya Qvardiya» nəşriyyatında «Görkəmli adamların həyatı» seriyasından ulu öndərimizin hamı üçün örnək olan həyatından,



siyasi fəaliyyətindən bəhs edən «Qeydar Aliyev» kitabını Rusiya və MDB ölkələrinin oxucularının ixtiyarına verdik.

Dünyada çox məşhur olan qırğız yazıçısı Çingiz Aytmatovla dostluğumuzun bəhrəsi kimi eyni kök üstə şaxələnən türk ağacının müxtəlif ləhcəli ədəbiyyatları arasında mövcud əlaqələr möhkəmlənməkdə, yeniləri yaranmaqdadı. Dediklərim qardaş türk ədəbi əlaqələrinə də aiddir.

Orta məktəbi medalla bitirmə məqsədimə gəlincə, bunun çox dərin kökləri var. Başlıca məqsədim anamın arzularını, istəklərini yerinə yetirmək, müəllimlərimin zəhmətini yerə vurmamaq olub. İstəmişəm ki, atasızlıq ailəmizin başına qaxınc gətirməsin, tay-tuşlarımdan geri qalmayım, həyatda rastlaşdığım, müşahidə etdiyim haqsızlıqlara qarşı gələcəkdə mübarizə aparmağa hazır olum. Xalqıma, millətimə, vətənimə layiqli, ləyaqətli övlad kimi xidmət etməyi bacarım. Məktəbi medalla bitirməyimin bəhrəsidir ki, ali məktəbi yaxşı qiymətlərlə oxumuşam. Çalışdığım sahələrdə mənə tapşırılmış vəzifələrin öhdəsindən bacarıqla gəlmişəm. Elm sahəsində öz sözümü demək imkanım yaranıb. Elmlər doktoruyam.

«Milli Məclisin deputatı və yazıçılıq. Bunlardan hansına üstünlük verirəm?». Bu sual ətrafında

bir qədər geniş danışmaq istərdim. Yazıçı cəmiyyətdəki, bu istər tarixi mövzularda olsun, istərsə də müasir mövzularda, nöqsanları, qlobal problemləri qabarıq şəkildə oxucularına çatdırır. Sevginin, məhəbbətin – anaya, vətənə, qəlbində əbədi yer tutmuş insana, təbiətə sevginin, məhəbbətin ülviliyini, müqəddəsliyini bədii sözün gücü ilə təsvir və tərənnüm etməklə, onun insan xarakterini necə dəyişdiyini, mükəmməlləşdirdiyini, fədakar etdiyini sübuta yetirir. Deputatlıq missiyası isə başqa cəhətləri ilə gərəklidir, vacibdir. Xalq elçisi xalqın xoş güzəranı, firəvan həyatı, gələcək inkişafı naminə işlək qanunların hazırlanıb qəbul olunmasında iştirak edir, onların həyata keçirilməsinə çalışır. Ən başlıcası isə seçicilərinin qaldırdığı problemləri həll etmək istiqamətində əlindən gələni əsirgəmir. Deməli, deputatlıqla yazıçılıq biri-birinə mane olmur, əksinə eyni məqsəd uğrunda səyləri birləşdirir.

Təbiətə münasibətə gəldikdə etiraf edim ki, ona olan böyük sevgi mənimlə eyni gündə, eyni saatda, eyni anda dünyaya gəlib. Əmdiyim ana südüylə, aldığım nəfəslə, içdiyim su ilə ruhuma, canıma hopub. Təbiət mənim üçün ikinci anadır. Ana yalnız öz övladlarının qayğısını çəkdiyi halda, təbiət bütün canlılara analıq edir. Dağlar, dənizlər, çaylar, göllər, bulaqlar, şəlalələr, güllər, çiçəklər, cüyürlər,



kəkliklər, ceyranlar, qartallar o müqəddəs varlığın bizə bəxşişidir.

Şehli gül ləçəyinin titrəyişi, yarpaqların həzin pıçıltısı, bülbüllərin öz sevgilisi üçün oxuduqları nəğmələr hamının qəlbini ehtizaza gətirir, bizi mənən, ruhən paklığa, təmizliyə, sevgiyə çağırır. Mən əsərlərimin demək olar ki, əksəriyyətində, xüsusilə də «Cəza» povestimdə, «Qayada çiçək» hekayəmdə, iri həcmli «Dağlarda atılan güllə» romanımda təbiətə, onda baş verən hadisələrə öz münasibətimi bildirmişəm. Allahımızın bizə bəxş etdiyi bu əvəzsiz nemətə laqeydlik göstərənlərə, onu vəhşicəsinə soyub talayanlara, canlı varlıqlarına qənim kəsilənlərə nifrətimi, etirazımı bildirmişəm. Oxucularıma çatdırmaq istəmişəm ki, təbiət öz düşmənlərini gec-tez özünün yazılmamış qanunları ilə mühakimə edir, cəzalandırır.

Yeri gəlmişkən, dostumla aramızda soyuqluğa, daha doğrusu ömürlük incikliyə səbəb olan əhvalatı xatırladım: Dağ rayonlarının birində yaşayan çox yaxın dostum bayramların birində bizə gəlmişdi. Hal-əhvaldan sonra cüyür sovqatı gətirdiyini bildirdi. Soruşdum ki, sağdırmı? Cavabında «yox, meşədə qoşalüləmlə vurmuşam», – deyə cavab verdi. Hirsimdən dodaqlarım titrədi: – Namərdlik eləmisən. Mənə nə sənin kimi dost, nə də gətirdiyin

sovqat gərəkdi, - dedim. O əhvalatdan uzun illər keçsə də, hələ də o dost dediyim insanla kəlmə belə kəsməmişəm. Qismətə baxın ki, Milli Məclisin deputatı kimi «Təbii sərvətlər və ekologiya» daimi komis-siyasının üzvüyəm.

Deməli, indi sərvətlərimizin qorunmasına, ondan düzgün istifadə olunmasına nail olmaq üçün daha çox imkan əldə etmişəm. Təbiətə qayğı rəhbərlik etdiyim "Azərbaycan Qaz Emalı Açıq Səhmdar Cəmiyyəti" kollektivində də diqqət mərkəzindədi. Hər il müəssisənin ərazisində, oraya gedən yolun ətrafında minlərlə ağac və gül kolu əkir, onları göz bəbəyi kimi qoruyuruq. Lakin son vaxtlar meşələrimizin kütləvi şəkildə qırılması ürəyimi ağrıdır, qəlbimi göyür-göyür göynədir. Xüsusilə erməni faşistlərinin işğal etdikləri müqəddəs Qarabağda törətdikləri vəhşiliklər, meşələri barbarcasına qırıb Ermənistana daşımaları bir azərbaycanlı kimi, deputat kimi, yazıçı kimi rahatlığımı, dincliyimi əlimdən alıb. İnsanlığa, təbiətə düşmən kəsilən bu vəhşilər törətdikləri cinayətlərlə kifayətlənməyərək ərazilərimizi alovlara qalamaqdan belə çəkinmirlər. Onlar öz vəhşi xislətlərinə sadiq olduqları, xalqı-mızın əzəli və əbədi düşməni olduqları üçün qeyri-insani əməllər törədirlər. Bəs onda özümüzünkülərin təbiətimizə düşmən kəsilməsinə nə ad verək? Bu dövlətə, ölkəyə, millətə xəyanətdir və bu xəyanətə, bu cinayətə tezliklə, özü də birdəfəlik son qoyulmalıdır.



Yaxşı ki, unutmadım. Maraqlı suallar arasında «Xeyirxahlığı nə məqsədlə edirsiniz?» sualı da var. Mənim fikrimcə xeyirxahlığı məqsəd, kiməsə xoş gəlmək naminə etmək mümkün deyil. O gərək insanın qanında, canında olsun. Mənə elə gəlir ki, yaxşılıq eləmək missiyası Tanrı tərəfindən insana ömür payı ilə birlikdə verilir. O ömrü ləyaqətlə yaşamağı bacaranlar yaxşı olmalı, yaxşılığı gündəlik həyat amalına, yaşam tərzinə çevirməlidir. Müəllifini unutduğum bir şeirdə deyildiyi kimi:

Allahların Allahıdır yaxşılıq,
İnsanların pənahıdır yaxşılıq.

Deməli, insanlara pənah durmaq hamımızın vəzifəsi və borcudur.

*H.F.Mirələmov*

## DOST SÖZÜ

Azərbaycan ədəbi ictimaiyyətinə, oxucularına, elm və ictimai mühitinə özünün istedadı, dünyagörüşü, Heydər Əliyev ideyalarına, irsinə, əməllərinə, böyüklüyünə, ucalığına sədaqəti, əqidəsi ilə yaxşı tanınan yazıçı dramaturq, ictimai xadim, millət vəkili Hüseynbala Mirələmovun rusiyalı yazıçı Viktor Andriyanovla birgə yazdıqları «Qeydar Aliev» kitabı dahi şəxsiyyətin irsinin, fəaliyyətinin öyrənilməsinə ən gözəl töhfədir... Onu da xüsusi qeyd etməyi vacib hesab edirəm ki, Hüseynbala Mirələmov yazıçı dramaturq, publisist kimi böyük istedad sahibidir... H.Mirələmov və V.Andriyanovun Heydər Əliyev haqqında monumental əsəri tarixilik, müasirlik baxımından çox qiymətlidir... Hüseynbala Mirələmov və Viktor Andiriyanov ulu öndərimiz Heydər Əliyevin tarixi şəxsiyyət kimi xalqı qarşısındakı xidmətlərinin ümumiləşdirilmiş məcmusunu çox böyük istedad və yazıçılıq səriştəsi ilə vermişlər.

*Mehriban Əliyeva*
Heydər Əliyev fondunun prezidenti,
YUNESKO-nun xoşməramlı səfiri,
millət vəkili



***

Biz hər bir mövzuda fikir mübadiləsi aparanda eyni məxrəcə gələ bilirik. Yeni yazdığım romanımı tamamlamışam. İlk variantını Hüseynbala oxumuşdu, iradlarını, təkliflərini demişdi. İndi üç yüz səhifəlik sonuncu variantını bu gün verəcəyəm ki, səbrlə gözdən keçirsin. İnanıram ki, boyun qaçırmayacaq. Ümumiyyətlə, məlumat üçün deyim ki, Hüseynbala ilə hər görüşəndə ondan müsbət enerji qəbul edirəm, mənən bəhrələnirəm.

*Çingiz Aytmatov*
Qırğızıstanın xalq yazıçısı

***

Hörmətli Hüseynbala Mirələmov, «Xəcalət» povestinizi yalnız yarıya qədər oxuya bildim. Qəhər məni boğdu, göz yaşlarımı saxlaya bilmədim, bacarmadım. Bu boyda dərdlə qol-qola, baş-başa yaşaya bildiyimə xəcalət çəkdim. Bəli, biz hamımız babalarımızın bizə əmanət verib getdiyi cənnət-məkan Qarabağı düşmənə təslim edəndən sonra yenə də yaşaya bildiyimizə görə, o müqəddəs torpaqda yetişən dahilərimizin ruhundan utanmalıyıq (mənim bu barədə «Utanıram» adlı şeirim var). Əsərinizlə məni bir daha utandırdığınıza görə,

Sizə təşəkkür-lərimi bildirir, axıra qədər oxuya bilmədiyimə görə Sizdən üzr istəyirəm, əfv edin, təsvir etdiyiniz o dəhşətli səhnələri yaşamaq qəlbi və vicdanı olan hər kəs üçün çox ağırdır.

*Bəxtiyar Bahabzadə*
Xalq şairi

***

...Mən bu kiçik kitaba toplanmış hekayələri oxuduqdan sonra, birdən-birə Lerik, Yardımlı dağlarını xatırladım, o dağların təmiz, şəffaf ab-havasını xatırladım, Lənkəranın, Astaranın, Masallının – doğma Azərbaycanımızın bu gözəl, ürəkaçan güşəsinin limonlu, narınclı, portağallı bağ-bağatını, qatarla sıralanan düzləri, təpələrin döşlərini bəzəyən çay plantasiyalarını xatırladım, Xəzərin heç yerdə yox, məhz Lənkəran, Astara sahillərində əsən mehini duydum.

Hüseynbalanın bu hekayələr kitabı «Tənha durna uçuşu» ilə başlayır, «Qayıtdı durnalar...» hekayəsi ilə sona yetir.

Nə yaxşı ki, o durnalar, o azad quşlar yenə də doğma torpağa qayıdırlar və mən çox istəyirəm ki, hansı janrda, hansı həcmdə yazmasından asılı olmayaraq, Hüseynbalanın qələmi də zəhməti kimi doğma torpağa, doğma yurda beləcə bağlı olsun.



*Elçin* Xalq yazıçısı

***

Bu gün Hüseynbala Mirələmovun təkcə yazıçı kimi deyil, həm də bir idarə rəhbəri kimi istər respublikamızda, istərsə də vətənimizin hüdudla-rından uzaqlarda tanınmasının, seçilməsinin bir səbəbi Tanrının ona bəxş elədiyi istedaddırsa, başqa səbəbi onun iradəsi, zəhmətsevərliyi, prinsipiallığıdır.

Hüseynbala ailədə də, dostluqda da etibarlı, sədaqətli, qaya kimi möhkəm, ancaq son dərəcə incə qəlbli, həssas, kövrək, həm də xeyirxah, səxavətli bir insandır.

*Hadı Rəcəbli*
Millət vəkili,
Sosial Siyasət Komissiyasının sədri

***

...H.Mirələmovun «Güllələnmiş heykəllərin fəryadı» əsərinin bədii-estetik pafosunu Azərbaycanın gələcəyinə, bütöv Azərbaycan istiqlalının bərqərar olacağına yazıçı və əsil vətəndaş inamı müəyyən edir.

Məncə, əsərin ədəbi-tarixi baxımdan dəyəri gənc nəsillərə bu inamın təlqin edilə bilməsindədir.

H.Mirələmovun «Güllələnmiş heykəllərin fəryadı» essesi yaddaşımızın qətlinə yazılan nikbin elegiya, bir oyanış üverturasıdır.

*Nizaməddin Şəmsizadə*
Filologiya elmləri doktoru, professor

***

...Biz yazıçıların çoxu bizi tərpədib yerimizdən oynadan mövzuları tənbəllik ucbatından «bir aydan», «bir ildən sonra yazaram» deyə günləri, ayları, illəri boşuna ötürürsə, Hüseynbala Mirələmov gündüzlər istehsalatda gərgin işdən macal tapma-dığında gecələr yuxusuna haram qataraq qələm «yarağını» əlinə alıb ağappaq kağızın önündə həyəcanlı – sanki qarla örtülmüş bəmbəyaz Borodino çölündə döyüşürmüş kimi qəlbini, ruhunu tərpətmiş, təlatümə gətirmiş bəzən coşğun, bəzən həzin, lirik, bəzən fəlsəfi, bəzənsə siyasi psixoloji düşüncə və hisslərini yazaraq gözəl hekayə, povest, esselərə çevirib oxuculara ərməğan edir.

*Səyyad Aran*
Yazıçı, millət vəkili



***

Lənkəranda rəhmətlik Həzrətqulu adlı bir balıqçı dostum Hüseynbala Mirələmovdan danışarkən dedi ki, o, insanlara yaxşılıq etməyə çalışan, əl tutan bir adamdır. Mən bu sözlərin əks-sədasını Bakıda Hüseynbala ilə yaxınlıq edən, onun əsərlərini çap edən, tamaşaya qoyan ədəbiyyat və sənət adamlarından da eşitdim.

Mərhum prezidentimizin il mərasimində Fəxri Xiyabanın girəcəyində küləkli, sazaqlı havada Hüseynbala Mirələmovla qısa təmasımızda söhbət zamanı onun sadəliyini, səmimiyyətini Fikrət Sadıqla, necə deyərlər qaşla-göz arasında hiss etdik.

Yer üzündə yazıçı, şair çoxdur. Hüseynbala da onlardan biridir. Yazıçını bəyənmək də olar, bəyənməmək də. Əsas şərt insanlıqdır ki, bu da mənə görə Hüseynbalanın ən gözəl məziyyətidir.

*Qabil*
Xalq şairi

***

Peşəkarlığı həyatdan ayrılıb bütün ömrü boyu yalnız masa arxasında oturmaqla əldə etmək olmaz. Ömrü boyu əlinə qələmdən başqa heç nə almayan,

əli bel-külüng tanımayan, torpaq qazmayan ədəbiyyat adamları var ki, neçə kitab çap elətdirsələr də, sözün əsil mənasında ədəbiyyat adamı olmayıblar. Ədəbiyyat həyatın gur nəfəsi ilə güclüdür. Gözlənilməz yerlərdən açılan qapılar, heç kimin öyrəşmədiyi mövzular, yıpranmamış deyim tərzi, sığalsız, cilasız dil bəzən ədəbiyyatı daha canlı və koloritli edir. Buna görə də bu gün dünyada həyatın özündən gələn bəlgəsəl – yəni bəlgələrə, sənədlərə söykənən ədəbiyyat daha çox oxunur. Çünki həyatın verdiyi mövzular, qurduğu süjetlər hətta ən istedadlı yazıçının da fantaziyasını üstələyir.

*Sabir Rüstəmxanlı*
Şair-yazıçı, millət vəkili

***

...H.Mirələmov geniş ampulaya malik olan yazıçıdır. Onun yaradıcılığında insan amili, insan ucalığı qırmızı bir xətt kimi keçir.

*Nurlana Əliyeva*
Filologiya elmləri doktoru



***

...Hüseynbala Mirələmovun yaradıcılığında yadda qalan çalarlar çoxdur. Ən əsası iki çaları nəzər diqqətə çatdırmaq istəyirəm. Birinci ən böyük çalar – Hüseynbala Mirələmov yaratdığı hekayələrin çoxunda dənizi – mavi gözlü Xəzəri vəsf edir. İkinci çalar isə odur ki, yazıçının əksər əsərlərində müharibə mövzusu üstünlük təşkil edir. Onun «Qayada çiçək» kitabında toplanmış hekayələrin çoxunda bu ruh özünü büruzə verir. Bu çox yaxşıdı. Beləliklə, bir daha sübut olunur ki, H.Mirələmov həssaslıqla dolub-daşan yaradıcı bir insandır. Onun «Izlər», «Dəyirmana gedən yol», «Bir tikə çörək», «Qayıtdı durnalar» hekayələrini həyəcansız oxumaq mümkün deyil. Hər bir hekayədə bir həyat, bir tale, bir ömür yaşanır.

*Hürü Hacızadə*
Jurnalist

***

Hüseynbala Mirələmovun simasında insanın, istedadlı bir fərdin tükənməz enerjisi, daxili gücü görünür. Onun əmək fəaliyyəti, bədii yaradıcılığı ilə tanış olandan sonra Hüseynbala müəllimin təpərli bir

vətən övladı, xalqının, millətinin, torpağının təsibini çəkən, namusunu, qeyrətini qoruyan vətəndaş olduğuna inanır və Azərbaycan oğlu olmasıyla fəxr edirsən.

*Sona Abbasəli qızı*
Neftçi-mühəndis

***

Hüseynbala Mirələmovun Qarabağ mövzusunda yazdığı əsərlər Azərbaycan Yazıçılar Birliyinin, Teatr Xadimləri İttifaqının, «Milli Birlik» təşkila-tının ən yüksək mükafatlarına layiq görülüb. Ancaq ən böyük mükafat insanın vicdanından aldığı mükafatdır, bu mənada yazıçı Hüseynbala Mirələmovu ən böyük, ən ali mükafata layiq saymaq olar. Belə oğulların çox olsun, Vətən!

*Aybəniz Kəngərli*
Filologiya elmləri doktoru, professor

***

Bu bir həqiqətdir ki, xalqın sevgisini qazanmaq çox çətin və məsuliyyətlidir. Həmin sevgi o zaman qazanılır ki, mənsub olduğun xalqın, vətənin ağrıacılarına, dərdinə biganə olmursan. Bir sözlə, ana



vətənlə birlikdə sevinməyi və kədərlənməyi bacarırsan, qəlbinin, ürəyinin səsini eşidirsən... Onları əməlində və əgər yaradıcılıq qabiliyyətinə maliksənsə, əsərlərində ifadə etməyə çalışırsan. Hüseynbala müəllim bu çətin missiyanın öhdəsindən ləyaqətlə gəlməyi bacarır.

"Güllələnmiş heykəllərin fəryadı" və "Xəcalət" əsərləri ilə...

*Esmira Fuad*
Filologiya elmləri namizədi

***

Hüseynbala Mirələmovun «Gəlinlik paltarı» romanını son illərdə mənəvi-əxlaqi mövzuda yazılmış ən dəyərli əsərlərdən biri hesab edirik. Bu əsərdə real həyat var, bəzəksiz-düzəksiz, amma bədii sözün işığında canlanan həyat...

*Vaqif Yusifli*
Ədəbiyyatşünas-tənqidçi

***

Mən Hüseynbala Mirələmovu bu gün MDB məkanında öz zəhməti və yaradıcılığı ilə sayılıb-seçilən bir şəxsiyyət kimi tanıyıram. Sevinirəm ki, o hər yerdə Azərbaycanı ləyaqətlə təmsil edir. H.Mirələmovun tanınmış qırğız yazıçısı Çingiz Aytmatovla yaxınlığına iki xalqın dostluq simvolu kimi baxıram.

*Maqsud İbrahimbəyov*
Xalq yazıçısı, millət vəkili

***

Hüseynbala müəllim sözün həqiqi mənasında böyük vətəndaşdır. Hüseynbala müəllim Pənahəli xanların, Vaqiflərin, Natəvan və Üzeyirlərin Qarabağda dolaşan ruhlarıdır. Hüseynbala müəllim çiyinlərində bir elin dərdini gəzdirən Anteydir. Hüseynbala müəllim Məkkəsi, Ziyarətgahı Şuşa olan zəvvardır!

*Raqub Kərimov*
Filologiya elmləri namizədi, dosent



***

Hüseynbala Mirələmov ədəbiyyatımızın yeni inkişaf mərhələsində öz sözü, yaradıcılıq fəallığı və məhsuldarlığı ilə seçilən, maraqlı əsərlərilə Qarabağın azadlığı uğrunda mübarizə mövzusunda nəsrimizi sözün həqiqi mənasında yoxsulluqdan çıxaran istedadlı yazıçılarımızdan biridir.

*Bəkir Nəbiyev*
Akademik

***

Hüseynbala Mirələmov əsərlərində yalnız bir yazıçı kimi deyil, bir cəmiyyətşünas – mütəfəkkir kimi də irəli gedir, insanlığın, xüsusən yeni həyat tərzinə başlamış Azərbaycan insanının hansı qlobal fəlakətlər qarşısında qaldığını cəsarətlə açıb göstərir.

*Nizami Cəfərov*
Filologiya elmləri doktoru,
millət vəkili

***

Hüseynbala Mirələmovu dağ çayına bənzədərdim: daim coşub-daşan, kükrəyən, məcrasına sığmayan... O, həmişə məşğuldu, istehsalatda, ədəbiyyat nəhrində, elm aləmində, gündəlik həyat problemlərinin ağuşunda. Dağ çayı dinclik bilmir, Hüseynbala müəllim də sonsuz daxili enerjiylə «yoruldum» sözünü dilinə gətirmir. Allah-təalanın bəxş elədiyi ömür payını havayı xərcləmir. Qurub-yaradır, problem həll edir, kasıb-kusuba xeyriyyəçi əlini uzadır, imkansız yetim-yesiri sevindirir. Mən cəsarətlə və iftixarla deyərdim ki, Hüseynbala Mirələmov bütün tanıdığı insanların qəlbində əbədi heykəlini ucaldıb... Bir sözlə suyu dumduru, şəffaf, qidasını qaynar bulaqların gözündən alan dağ çayı kimi eyni məkan, məskən tanımır, daim çağlayır. Axı o, böyük əməllər, ülvi ideallar carçısıdır və haqlı olaraq dərin nəhrlərə can atır...

*Ağacəfər Həsənli*
Yazıçı-jurnalist



***

Hüseynbala Mirələmovu əvvəlcə bacarıqlı müəssisə rəhbəri, iş adamı, dövlətçiliyimizə sadiq, əsil vətəndaş kimi tanımışam. İllər keçdikcə səmimiyyəti, böyük ürəyi, insanlara, xüsusən doğma yurd-yuvalarından vəhşiliklə qovulmuş həmvətənlərimizə göstərdiyi qayğı və diqqəti onu mənim gözlərimdə daha da ucaltmışdı.

«Zəfər yolu» essesi, «Xəcalət» povesti, «Amalın işığında», «Vicdanın hökmü», «Güllələnmiş heykəllərin fəryadı» əsərlərini oxuduqdan sonra onu yazıçı kimi də kəşf etdim. Hüseynbala müəllim hansı sahədə olsa liderlik keyfiyyətini, işləmək qabiliyyətini qısa müddətdə göstərməyi bacaran adamdı.

*Natiq Əliyev*
Sənaye və energetika naziri

I

## Yazıçı-dramaturq, Texnika elmləri doktoru, millət vəkili Hüseynbala Mirələmovun həyatı, elmi-ədəbi və ictimai fəaliyyətinin əsas tarixləri

Hüseynbala Fazil oğlu Mirələmov – 25 iyun 1947-ci ildə Lerik rayonunun Nuravurd kəndində anadan olmuşdur.

1961– Orta məktəbdə oxuyarkən "Leninçi" qəzetində "Bir tikə çörək" adlı ilk hekayəsi çap olunmuşdur;

1964 – Lənkəran şəhərindəki 2 saylı orta məktəbi gümüş medalla bitirmişdir;

1970 – Azərbaycan Politexnik İnstitutunu İnşaatçı-mühəndis ixtisası üzrə bitir mişdir;

1971-1986 – Lənkəran şəhəri 4 saylı Qaz tikinti-quraşdırma idarəsində iş icraçısı, baş mühəndis və idarə rəisi vəzifələrində çalışmışdır;

1979 – Qaz sənayesindəki əmək fəaliyyətinə görə "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur;



1986 – "Tənha durna uçuşu" adlı ilk kitabı "Gənclik" nəşriyyatında çap olunmuşdur;

1986-1988 – "Azəriqaz" təmir-tikinti rəis;

1988-1989 – "Maye Qaz" istehsalat Birliyində rəis;

1989-1992 – Azərbaycan Dövlət Yanacaq Komitəsində sədrin birinci müavini;

1992-1996 – Memarlıq və İnşaat Mühəndisləri Universitetində laboratoriya müdiri;

1996-1998 – "Bakqaz" istehsalat idarəsində rəis müavini işləmişdir;

1996 – Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür;

1998 – Azərbaycan Qaz Emalı zavodunun direktoru vəzifəsinə təyin olunmuşdur;

1998 – Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı Rəyasət Heyətinin təltif etdiyi "Vətən" fəxri dipləmunu almışdır;

1999-2006 – MDB ölkələrinin keçirdiyi "Birliyin 100 sənaye və elm lideri" müsabiqəsində hər il "İlin direktoru" adına layiq görülmüşdür;

2001 – Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur;

2001 – "Azərbaycan Qaz Emalı zavodunda qazın və qaz kondensatının kompleks emalının yüksəldilməsi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir;

2001 – Parisdə "Fransa sənayesinə köməklik Assosiasiyası"nın keçirdiyi müsabiqənin "Qızıl medalı"nı almışdır;

2001 – Ukrayna Respublikasının "Qızıl Fortuna" Beynəlxalq Reytinq Akademiyasının keçirdiyi "Yüksək əmək göstəricilərinə və Zaqafqaziya ölkələrində [illegible] qaz emalı sənayesinin inkişafındakı xidmətlərinə görə" nominasiyasının IV dərəcəli "Şərəf. Şöhrət. Əmək" Georgiyevsk qızıl medalına, "Üçüncü minillikdə keyfiyyət" nominasiyasının isə Gümüş Stella və Keyfiyyət diplomuna layiq görülmüşdür;



2001 – Fransa Sənayeçilərtəltif etdiyi "Napaleon"qızıl medalına layiq görülmüşdür;

2001 – "Qafqaz-Media" İctimai Birliyinin 10000 tamaşaçı arasında apardığı sorğulara əsasən "İlin dramaturqu" diplomunu almışdır;

2002 – Beynəlxalq Jurnalistlər Birliyinin üzvü olmuşdur;

2002 – "Qızıl Qələm" media mükafatı laureatı diplomuna layiq görülmüşdür;

2003 – Abdulla Şaiq mükafatı;

2003 – "Vicdanın hökmü" pyesinə görə Teatr Xadimləri İttifaqının təltif etdiyi "Qızıl Dərviş" mükafatı;

2003 – "Milli birlik" təşkilatının "Qara Qalxan" mükafatı;

2003 – Mətbuatda uğurlu publisistik fəaliyyətinə görə Azərbaycan Jurnalistlər birliyinin "Diplomu"na layiq görülmüşdür.

2005 – Azərbaycan Respublikasının Milli Məclisinə üzv seçilmişdir.

2006 – "Qızıl Buta" mükafatına layiq görülmüşdür.

2006 – Ümummilli lider H.Əliyev siyasi kursu mükafatı almışdır;

2007 – "Neft metalporifirin konsentratları əsasında metalporifirinlərin alınması və onların neft-kimyа proseslərində və təbii qazın emalında tətbiqi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

2007 – Beynəlxalq Rəsul Rza mükafatına layiq görülmüşdür.

2007 – Qarabağ mövzusunda yazdığı əsərlərə görə Azərbaycan Yazıçılar Birliyinin Diplomuna və xüsusi mükafata layiq görülmüşdür.

2007 – "Cəza" povestinə görə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin təsis etdiyi akademik Həsən Əliyev adına mükafat verilmişdir.



# II

## ƏSƏRLƏRİ, KITABLAR

### 1986

1. **Tənha durna uçuşu**: Hekayələr /Red.: Z.Şahsevənli.- B.: Gənclik, 1986.- 60 s.

Kitabın içindəkilər: Tənha durna uçuşu; Qasırğa tez kəsdi; Son arzu; Qara xal; Ulduza doğru; Simuzər; İzlər; Dəyirmana gedən yol; Qayıtdı durnalar.

### 1991

2. **İnşaat istilik fizikası**: Ali texniki məktəblər üçün dərs vəsaiti /K.Rüstəmov, N.Hüseynov, M.Mərdanov.- B.: Maarif, 1991.- 164 s.

### 2000

3. **Qaz kondensatları:** Xüsusiyyətləri. Tərkibi. İşlənməsi. İstifadəsi /H.Mirələmov, H.Əliyeva.– B.: Zaman, 2000.- 331 s.

4. **Karbohidrogen qazlarının emalının texnoloji** sxemlərinin atlası /P.Xankişiyev, R.Əsgərli-

Nəsirov, K.Əcəmov: Ali məktəblər üçün dərs vəsaiti.- B., 2000.- 111 s.

**2002**

**5. Amalın işığında**: [Publisistik düşüncələr, portret cizgilər, müsahibələr]– B.: Azərbaycan, [redacted]

yan əhvalatın davamı; İbrətamiz əhvalat; Ürəkdağlayan əhvalatın davamı və bəlkə də sonu; Beşlik qurtardı; Bizim ümid sabahımız.

**9. Həqiqət:** [Heydər Əliyev haqqlnda publisistik düşüncələr] /Red.: Ə. Xələfli.– B.: Azərbaycan, 2003.- 446 s.

[redacted]

**16. Hər söz bir inci...** [Aforizmlər, müdrik fikirlər] /Red.: Ə.Xələfli.– B.: Səda, 2004. – 227 s.

**17. İşığın izi ilə**: [Heydər Əliyev haqqında tarixi – ədəbi esse] /Red.: E.Kamal. – B.: Azərbaycan, 2004. – 270 s.- (Mətn Azərb., rus və ing. Dillərində).

**18. Millətin atası**: [Heydər Əliyev haqqında publisistik düşüncələr, tarixi esselər, məktublar] /Red.: Ə.Xələfli.- B.: Azərbaycan, 2004.- 271 s.

**2005**

**19. Həyat eşqi**: [Povest]: [Bəxtiyar Vahab-zadənin 80 illik yubileyinə bağışlayıram] /Red.: A.Abdulla.- B.: Nurlar, 2005.- 72 s.

**20. Vicdanın cəzası**: [Povest, hekayə və esse] /Red.: V.Yusifli.- B.: Nurlar, 2005.- 270 s.

Kitabın içindəkilər: Xəcalət (Povest), Vicdanın cəzası (Hekayə), Güllələnmiş heykəllərin fəryadı (Esse); Bir "Qarabağnamə" də... (Vaqif Yusifli).

**2006**

**21. Bir gecənin sehri**: [Povestlər, hekayələr və publisistika] /Red.: Dilsuz.- B.: Nurlar, 2006.- 496 s.



Kitabın içindəkilər: **Povestlər**: Təmizlənmə; "Coğrafiya çubuğu". **Hekayələr**: Yuxu; Bir gecənin sehri; Çimərlikdə; Hesab çatıb; Qatarda; Qarınqulu; Maşallahın paneli. **Publisistika**: Ruhunu gözlərində gördüyüm sənətkar; Şəxsiyyətin özü və sözü; Şəhidlər xiyabanı – İftixar ocağı; Məqbulə İbrahimbəyova açıq məktub; Mənəviyyatın ekologiyası, yaxud iki od arasında; 60 yaş nədir ki...; 60-cı illər intibahı və Sərdar Əsəd yaradıcılığı; Sözün haləsində; **Tənqid və ədəbiyyatşünaslıq:** Rəsul Rza haqqında yeddi nəğmə; İdeala sədaqətlə; Talelər poeziyası; "Mən ürəyəm döyünməsəm ölərəm"; Ənənəyə bağlı və ənənə yaradan şair; "Dünya insan evidir"; Rəsul Rza poeziyasında ağlı-qaralı dünya; Rəsul Rza və Azərbaycan həqiqətləri. **Tərcümələr:** Varlam Şalamov (Rusiya) Su baldırğanı; Giləmeyvə; Apostol Pavel; İudeya Prokuroru; Sehrkar; Sentensiya. Yuri Polyaka (Rusiya) Homo erektus və yaxud arvadların dəyişdirilməsi. Teymur Zülfüqarov (Özbəkistan) Kəklikli qəfəs.

**2007**

**22. Cəza:** [Povest] /Red.: Dilsuz.- B.: Nurlar, 2007.- 144 s.

**23. Yanan qar**: Roman: [Dağlarda atılan güllə] /Red.: V.Bəhmənli.- B.: Kür-Araz nəşriyyat evi, 2007.- 400 s.

## *Dövri mətbuatda çap olunan əsərləri*

### 1961

**24. Bir tikə çörək**: [Hekayə] //Leninçi.- 1961.- 7 noyabr.- S.4.

### 1966

**25. İzlər:** [Hekayə] //Politexnik.- 1966.- 4 noyabr.- S.2.

### 1967

**26. Bəyqulu**: [Satirik hekayə] //Politexnik.- 1967.- 10 mart.- S.2.

**27. Dəyirmana gedən yol:** [Hekayə] //Azərbaycan pioneri.- 1967.- 24 oktyabr.- S. 4.

**28. İzlər:** [Hekayə] //Ulduz.- 1967.- №8.- S.39-40.

**29. Məhəbbət və üzük:** [Hekayə] //Politexnik.- 1967.- 5 may.- S.2.

**30. Sonuncu tikə**: [Hekayə] //Azərbaycan pioneri.- 1967.- 9 may.- S.4.

### 1968

**31. İstəmirəm:** [Hekayə] //Azərbaycan pioneri.- 1968.- 23 fevral.- S.4.

### 2000

**32.** 5. **Ağıla söykənən güc qalibdir:** (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.- 2000.- 8 iyun.- S. 2.

**33.** 3. **Ağılın separat düşüncəyə qarşı mübarizəsi**: (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.- 2000.- 25 may.- S. 2.

**34. Əsas körpü kimin çiynindədir**: (Siyasi oçerk: Zaman

adlı siyasi oçerkindən bir parça] //Kredo.- 2000.- 29 iyun.- S. 2.

**35.** 2. **Əsrin yüz böyük rəhbərlərindən biri**: (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.- 2000.- 18 may.- S. 2.

**36.** 6. **Qayıdış xalqın nicatı idi:** (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.- 2000.- 15 iyun.- S. 2.

**37.** 7. **Memarı yaşadan əməlləridir**: (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.-2000.- 22 iyun.- S. 2.

**38.** 1. **Siyasi fenomenin işığında görüntülər:** (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.- 2000.- 11 may.- S. 2.

**39.** 4. **Tarix heç kimin xidmətini unutmur**: (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.- 2000.- 1 iyun.- S. 2.



**40.** 9. **Yaddaşsızlıq bəlaların mayasıdır:** (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.- 2000.- 6 iyul. – S. 2.

## 2001

**41.** 17. **Azadlığın böyük əsgəri**: (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2001.–18 oktyabr.– S.2.

**42.** 11. **Biz nadir irsin varisləriyik:** (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2001.– 18 mart.– S.2.

**43.** 18. **Diplomatiya döyüş meydanıdır**: (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2001.– 28 oktyabr.– S.2.

**44.** 14. **Görünən dağa bələdçi lazım deyil:** (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqi-

qət" adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2001.– 11 avqust.– S.2.

**45.** 16. **"Hakimiyyət formulu: Azərbaycan** prezidenti Heydər Əliyev": (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2001.– 29 sentyabr.–S.2.

**46. Heydər Əliyev – Dünya Azərbaycanlılarının** ümummilli lideri: [Tarixi-ədəbi esse] //Kredo.- 2001.- 29 dekabr.- S.4.

**47.** 20. **Həyati zərurətin təsdiqi:** (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2001.– 10 noyabr.– S.2.

**48.** 23. **Xalqdan gələn insan**: (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.- 2001.- 15 dekabr.- S.2.

**49.** 22. **Xarakter bütün uğurların mənbəyidir:** (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2001.– 1 dekabr.– S.2.



**50.** 19. **Qanun əzəmət, güc və qüdrət deməkdir**: (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2001.– 10 noyabr.– S.2

**51. Qartal:** [Hekayə] //Kredo.- 2001.- 24 noyabr.- S. 5.

**52.** 13. **Möhtəşəm hökumətlər möhtəşəm millətlərdən** doğar: (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2001.– 23 iyun.– S.2.

**53. 21. Müstəqilliyi qorumaq onu qazanmaqdan** çətindir: (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2001.–24 noyabr.– S.3.

**54.** 15. **Nüfuz həlledici amildir:** (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2001.– 20 sentyabr.– S.2.

**55.** 12. **Söhbət taleyimizdən gedirsə**: (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət"

adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2001.– 14 aprel.– S.2.

**56.** 10. **Tarix Allahın səbridir yaxud əsrin sonunda düşüncələr**: (Siyasi oçerk: Zamanın təəs-süratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2001.– 1 yanvar.– S.2.

**57.** 25. **Tarix yazmaq tarix yaratmaq qədər mühümdür**: (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2001.– 29 dekabr.– S.2.

**58. Vicdanın cəzası**: [Hekayə] //Kredo.– 2001.– 1 dekabr.– S.4; 15 dekabr.– S.5; 22 dekabr.– S.6.

**59.** 24. **Yollar hamar olmur:** (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.- 2001.- 22 dekabr.- S.2.

**2002**

**60.** XXVI. **Açıq sözün gücü**: (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət"



adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2002.– 20 iyul.– S.2.

**61.** VI. **Azərbaycan ərazi bütövlüyünü təmin edəcək**: (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydə Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflini "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo. 2002.– 2 mart.– S.2.

**62.** H. **Bayraq qürur simvoludur**: (Siyas oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həs olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2002.– 1 noyabr.– S.2.

**63.** XXIV. **Bir kökdən olan xalqların yol** (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyev həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həq qət" adlı siyasi oçerkindən bir parça] //Kre-do. 2002.– 6 iyul. – S.2.

**64.** XX. **"Bu tarix bizdən sonra da yazılaca davam etdiriləcəkdir"**: (Siyasi oçerk: Zamanın təə süratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmo və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən b parça] //Kredo.– 2002.– 8 iyun.– S.2.

**65.** Ə. **Çalarlı suallar, məntiqli cavabla** (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyev həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həq

qət" adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2002.– 18 oktyabr.– S.2.

**66. Çimərlikdə:** [Hekayə] //Kredo.- 6 aprel.- 2002.- S.5.

**67. Dağ var, dəniz var, bir də böyük insan:** [Heydər Əliyevə həsr olunmuş "Amalın işığında" kitabından] //Kredo.– 2002. – 9 may. – S.2.

**68.** C. **4 oktyabr 1994-cü il:** (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.- 2002.- 5 oktyabr.- S.2.

**69.** XXII. **Dövlət yaratmaq dövlət atributları** yaratmaq deyil: (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı si...

adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2002.– 30 mart.- S.2.

**72.** Ç. **Etiraf heç vaxt gec deyil**: (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2002.– 28 sentyabr.– S.2.

**73. Ədalət hər işdə haqq bilməkdir**: [Heydər Əliyev haqqında, "Amalın işığında" kitabından] //Kredo.– 2002.– 25 may.– S.2.

**74.** B. **Ədəbi özüllər qüdrətli sütunlar:** (Siyasi oçerk: Zamanın təəssüratı): [Heydər Əliyevə həsr olunmuş H.Mirələmov və Ə.Xələflinin "Həqiqət" adlı siyasi oçerkindən bir parça] //Kredo.– 2002.– 21 sentyabr.– S.2.

